Bu günlərdə “İrşad” otelində “Hüquq müdafiəçisi” adlı tədbir keçirilib. ABŞ-ın “Uşaqların xilası” beynəlxalq humanitar təşkilatının Təhsil Nazirliyi ilə birgə həyata keçirdiyi “Uşaqların tolerantlıq təhsili proqramı” çərçivəsində təşkil edilən bu tədbirdə Təhsil Nazirliyinin əməkdaşı, “Uşaqların xilası” təşkilatının rəhbərliyi, müvafiq proqrama maliyyə dəstəyi göstərən İsveçrə səfirliyinin nümayəndəsi, eləcə də Bakı, Sumqayıt, Gəncə, Mingəçevir şəhərlərinin, Quba, Şəki və Lənkəran rayonları məktəblərinin I-IV siniflər üzrə ibtidai sinif müəllim və şagirdləri iştirak edib.

Tədbirdə məktəblilər uşaq hüquqlarını əks etdirən kiçik tamaşalar, süjetli oyunlar nümayiş etdiriblər.

Sonda uşaq hüquqlarının müdafiəsi ilə bağlı maraqlı müzakirələr aparılıb.